

# Pakistanın birinci xanımı Bequm Sahiba "Azər-İlmə"nin qonağı olub

Pakistan Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfəri çərçivəsində onun xanımı Bequm Sahiba "Azər-İlmə"nin "Sehirli ilmələr" qalereyasında olub.

Qonaq "Azər-İlmə"nin nadir Azərbaycan xalçalarından və məmulatından ibarət sərgiyə baxıb. Yüksək keyfiyyəti və naxışlarının zənginliyi ilə seçilən Azərbaycan xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır.

Qonağa məlumat verilib ki, 1994-cü ildə yaradılan "Azər-İlmə"nin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya və Rusiyanın xüsusi mükafat və sertifikatlarına layiq görülüb. Naxışlarının incəliyi, ilmələrinin yüksək sıxlığı, ornamentlərinin orijinallığı və milli koloriti ilə seçilən xalçaların istehsal prosesi bütün beynəlxalq standartlara cavab verir.

Bildirilib ki, xalçaçılıq Azərbaycan xalqının ən qədim sənətlərindən biridir.

Xalça sexi ilə tanış olan qonaq xalça toxunması prosesi ilə maraqlanıb, qalereyanın zəngin eksponatları ilə tanış olub.

















20895

Burada toxunan xalçalar yüksək keyfiyyəti və ornament müxtəlifliyi ilə seçilir. Vurğulanıb ki, Şirvan, Təbriz, Qarabağ, Qazax-Borçalı, Gəncə, Quba xalçaları hələ orta əsrlərdə Böyük İpək Yolu boyunca yerləşən bütün ölkələrdə məşhur olub.

Diqqətə çatdırılıb ki, "Azər-İlmə"də toxunan xalçalar beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir. "Azər-İlmə" Avropa Biznes Assambleyasının "United Europe" və "XXI əsrin liderləri" beynəlxalq imic proqramının "European Quality" ("Avropa keyfiyyəti") nüfuzlu mükafatlarına layiq görülüb.

Pakistanın birinci xanımı "Azər-İlmə"nin Xalçaçılıq Tədris Mərkəzində də olub.

Qonağa xatirə hədiyyələri təqdim edilib.

*Bakı, 12 mart, AZƏRTAC*

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası